**Şəffaflığa xidmət edən islahatlar Azərbaycanı müasir və inkişaf etmiş ölkəyə çevirəcəkdir**

Son dövrlərdə ölkədə şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizəni nəzərdə tutan qanunverici-institusional tədbirlər daha da gücləndirilmiş, bu sahədə yeni imkanlar açan milli fəaliyyət proqramları qəbul olunmuşdur. Milli Məclisin deputatı Çingiç Qənizadə «Vergilər» qəzetinə müsahibəsində bu sahədə həyata keçirilən tədbirlərin əhəmiyyətindən söz açmışdır.

***- Çingiz müəllim, son illər ölkədə şəffaflıq və hesabatlılığın təminatına yönəlmiş tədbirləri necə dəyərləndirirsiniz?***

- Korrupsiyaya və digər neqativ hallara qarşı mübarizə iqtisadi inkişafının yeni mərhələsinə qədəm qoymuş Azərbaycan üçün müstəsna əhəmiyyət kəsb edir. Dövlət başçısı İlham Əliyev səlahiyyətlərinin icrasına başladığı ilk gündən idarəçiliyin bütün sahələrində şəffaflığın və aşkarlığın artırılmasını, maliyyə intizamının gücləndirilməsi zərurətini önə çəkmişdir. Ölkə Prezidentinin qanunvericilik təşəbbüsü əsasında Milli Məclis 13 yanvar 2004-cü il tarixli «Korrupsiyaya qarşı mübarizə haqqında» Qanun qəbul etmişdir. Bundan başqa, qanun əsasında «Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı (2004-2006-cı illər)» layihəsi hazırlanaraq 3 sentyabr 2004-cü il tarixdə təsdiq edilmişdir. Proqrama əsasən, 2005-ci ildən Ədliyyə, Gömrük, Vergilər, İqtisadi İnkişaf, Daxili İşlər, Xarici İşlər nazirlikləri, prokurorluq və digər dövlət orqanlarına işə qəbul yalnız test üsulu və müsabiqə yolu ilə həyata keçirilir.

Prezident İlham Əliyevin 28 oktyabr 2004-cü il tarixli fərmanı ilə Azərbaycan Respublikası Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi yaradılmışdır. Bunun sayəsində ötən illərdə bu sahədə əhəmiyyətli nəticələr əldə edilmişdir. Ümumilikdə, ölkə rəhbərinin 28 iyul 2007-ci il tarixli «Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın təsdiq edilməsi barədə», 2009-cu il 22 iyun tarixli «Dövlət və bələdiyyə əmlakının və vəsaitlərinin idarə olunması sahəsində korrupsiya ilə əlaqədar hüquqpozmalara qarsı mübarizənin gucləndirilməsi haqqında», 13 aprel 2010-cu il tarixli «Sahibkarlıq sahəsində yoxlamaların nizama salinması və istehlakçıların hüquqlarının qorunmasının təmin edilməsinə dair bəzi tədbirlər haqqında» fərmanları ölkəmizdə korrupsiyaya qarşı mübarizə tədbirlərinin ardıcıl xarakter daşıdığını bir daha təsdiqləmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli «Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə»nin təsdiq edilməsi barədə fərmanına əsasən, Ədliyyə Nazirliyində «Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestri» formalaşdırılaraq 2011-ci il may ayının 1-dən fəaliyyətə başlamışdır. Reyestrin aparılmasını, istifadəsini və orada saxlanılan məlumatların mühafizəsini təmin edən qeydiyyat informasiya sisteminin vahid portalı www.yoxlama.gov.az internet ünvanında yerləşdirilərək yoxlayıcı orqanların və sahibkarlıq fəaliyyəti subyektlərinin istifadəsinə verilmişdir.

***- Son iki ildə bu sahədə inzibati və maarifləndirmə tədbirlərinin daha da gücləndirilməsi nə ilə şərtlənir?***

- Azərbaycanın dinamik iqtisadi inkişafı, vətəndaşların sosial rifah halının ildən-ilə güclənməsi, hüquqi-siyasi şüur səviyyəsinin yetkinləşməsi hökumətə bu sahədə həm də inzibati tədbirləri gücləndirməyə, korrupsiyaya rəvac verən halları müəyyənləşdirərək qarşısını almağa imkan yaradır. 2011-ci il yanvarın 27-də Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın geniş iclasından sonra bu sahədə tədbirlər daha da intensivləşmişdir. Dövlət orqanlarının fəaliyyətində şəffaflığın və səmərəliliyin artırılması məqsədilə ölkə Prezidenti 2011-2012-ci illərdə bir sıra fərmanlar, sərəncamlar imzalamışdır. Bunların bir qismi Daxili İşlər Nazirliyinin Yol-Patrul Xidmətinin və Dövlət Gömrük Komitəsinin əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi, bir sıra xidmətlərin «vahid pəncərə» sistemi əsasında tətbiqinin həyata keçirilməsini nəzərdə tutur. Tətbiq olunan cərimələrin müəyyən faizinin mükafat formasında yol polisi və gömrük orqanları əməkdaşlarının aylıq vəzifə maaşlarına əlavə olunması da stimullaşdırıcı addım kimi mühüm əhəmiyyətə malikdir.

Görülmüş tədbirlər sırasında 16 fevral 2011-ci il tarixli «Normativ hüquqi aktlar haqqında» Azərbaycan Respublikasının Qanunu ilə korrupsiyaya qarşı mübarizə ilə əlaqədar normativ hüquqi aktların ekspertizasının aparılması qaydasının müəyyənləşdirilməsini, dövlət orqanları tərəfindən

tətbiq edilən rüsum və tariflər barədə dəqiq məlumatlar almaq məqsədilə «www.rusum.az» saytının yaradılmasını, dövlət qurumlarının nümayəndələrinin və vətəndaşların münasibətlərinin etik davranış çərçivəsində tənzimlənməsinə dəstək vermək məqsədilə «www.etika.az» saytlarının yaradılmasını qeyd etmək olar.

***- Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli sərəncamı ilə təsdiq edilmiş «Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı»nın əhəmiyyəti barədə nə demək istərdiniz?***

- 2007-ci il 28 iyul tarixli «Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya» çərçivəsində normativ hüquqi bazanın, institusional mexanizmlərin təkmilləşdirilməsi, dövlət və yerli özünüidarə orqanlarının fəaliyyətinin açıq hökumət prinsiplərinə uyğunlaşdırılması, qərarların qəbulu prosesində ictimaiyyətin iştirakının genişləndirilməsi, şəffaflığın artırılması, beynəlxalq öhdəliklərin icrasının təmin edilməsi məqsədilə ölkə başçısı 2012-ci il 5 sentyabr tarixdə «Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı»nın və «Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı»nın təsdiq edilməsi haqqında» sərəncam imzalamışdır.

Sərəncamla imzalanmış «Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı» 28 maddədən ibarətdir. Planda korrupsiyaya qarşı mübarizə tədbirləri ilə yanaşı, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsinə də geniş yer ayrılmışdır. Korrupsiyaya qarşı mübarizə üzrə qanunvericilik bazasının, etik davranış qaydalarının, ərizə və şikayətlərə baxılması işinin, cinayət təqibi sahəsində qanunvericiliyin, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının, Baş Prokuror yanında Korrupsiyaya qarşı mübarizə İdarəsinin fəaliyyətinin, təkmilləşdirilməsi tədbirlərini bu baxımdan xüsusi qeyd etmək olar.

Fəaliyyət Planında, həmçinin, cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılmasına qarşı mübarizə, dövlət qulluqçularının fəaliyyətinin təkmilləşdirilməsi, maraqlar toqquşmasının qarşısının alınması, maliyyə xarakterli məlumatlar haqqında bəyannamələrin təqdim edilməsi, sahibkarlıq fəaliyyəti üçün daha da əlverişli mühitin yaradılması, audit, vergi, gömrük, dövlət satınalmaları, sosial müdafiə və digər sahələrdə fəaliyyətin müasirləşdirilməsi tədbirlərinə geniş yer ayrılmışdır.

Fikrimcə, Fəaliyyət Planının 12-ci bəndində nəzərdə tutulan tədbirlər ölkədə sahibkarlıq mühitin daha da liberallaşmasını, respublikada güclü orta təbəqənin formalaşmasını təmin edəcəkdir.

***- Həyata keçiriləcək tədbirlər insan və vətəndaş hüquq və azadlıqlarının təmini sahəsində nə vəd edir?***

- İnsan və hüquq azadlıqlarının təmini elə bir mürəkkəb prosesdir ki, bu sahədə islahatların sonu və son imkanları görünmür. Ölkə rəhbərliyi məhz bu reallıqdan çıxış edərək, Azərbaycanın inkişaf etmiş ölkələr səviyyəsinə qaldırılması üçün hüquqi-siyasi liberallaşma sahəsində kompleks tədbirlərin zəruriliyini önə çəkir. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında İnsan Hüquqları sahəsində Milli Fəaliyyət Proqramı» da sosial-iqtisadi inkişaf prosesinin keyfiyyətcə yeni mərhələsində hüquqi-siyasi islahatların uğurla davam etdirilməsi məqsədini ön plana çəkir.

Dövlət başçısının 5 sentyabr 2012-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş milli fəaliyyət proqramları da məhz insanların hüquq və mənafeyinin təminatı baxımından daha çevik mexanizmlərin formalaşmasını təmin edəcəkdir. Şəffaflığa xidmət edən islahatlar Azərbaycanı müasir və inkişaf etmiş ölkəyə çevirəcəkdir.

***- «ASAN xidmət» mərkəzlərinin yaradılmasını korrupsiyaya qarşı mübarizə sahəsində necə qiymətləndirirsiniz?***

- Prezident İlham Əliyevin 13 iyul 2012-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yaradılmışdır. Agentlik «ASAN xidmət» mərkəzlərini yaratmaqla onların vahid şəkildə idarə edilməsini, xidmət mərkəzlərində fəaliyyət göstərən dövlət orqanlarının əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsini, informasiya bazalarının qarşılıqlı inteqrasiyasını, bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsini təmin edən dövlət orqanı kimi fəaliyyət göstərməlidir.

«ASAN xidmət», ilk növbədə, dövlət qulluqçularının fəaliyyətində əhaliyə münasibətdə vətəndaş məmnunluğunun təmin edilməsinə xidmət edən yeni yanaşmanın formalaşdırılmasıdır.

Bu, dövlət idarəçiliyinə özəl sektorda geniş yayılmış «müştəri məmnunluğu» ideyasının reallaşdırılmasıdır. Bu ideyanın maraqlı cəhətlərindən biri də odur ki, həmin xidmətlər şərti müəyyən edilmiş «bir qapı» prinsipi üzrə təqdim ediləcək. Belə ki, vətəndaş yalnız bir qapıdan daxil olmaqla bir mərkəzdən (bir inzibati binadan) ayrı-ayrı dövlət qurumlarının müxtəlif xidmətlərindən eyni məkanda və eyni vaxtda yararlana biləcək.

Bu ideyanın digər bir maraqlı elementi ondan ibarətdir ki, həmin mərkəzlərdə xidmətlər yaşayış yeri üzrə qeydiyyatından asılı olmayaraq, hər bir vətəndaş üçün həyata keçiriləcək və təqvimin bütün günlərində fasiləsiz açıq olacaq. «ASAN xidmət» mərkəzlərində çalışacaq vergi, ədliyyə, gömrük, əmlak, sosial müdafiə, daxili işlər, miqrasiya və s. dövlət orqanlarının əməkdaşları müasir xidmətlər göstərəcəklər. Adından da göründüyü kimi, yeni mərkəzlər insanların işini asanlaşdıracaq, onların neqativ hallarla üzləşməsinin qarşısını alacaqdır.

Samir MUSTAFAYEV